sızlıq, həm satqınlıq, həm riyakarlıq, həm cinayətkarlıq, sadizm, həm də nadanlıq var. Hətta baş verən bir ailə faciəsinin, insan ölümünün kökündə nə durur, (məhz həmin adamın başqa ailənin işinə müdaxiləsi) onu belə anlamayacaq qədər qanmaz biridir... O, yol yoldaşına ürəyini açır, sirr kimi saxladığı bir əhvalatı fəxrlə danışır, bu əhvalatın mahiyyəti isə onun özünü ifşa edir. Yol yoldaşı onun maşınına minəndə ona münasibəti bir başqa idi, düşəndə isə tamam başqa cür olur. Bütün bunların çox kiçik bir süjetə yerləşdirib müəllif. Həmin süjetdən bəzi tezis xarakterli fraqmentlərə, cümlələrə diqqət edək: "Oğlum yerindəsən, bütün həyatın hələ qabaqdadı. Görə-görə özün hər şeyin kökünə gedib çıxacaqsan... Görürəm, buradakı qızlarla hərdən xosunlaşırsan. Yox. Heç nə demirəm. Gəzmək də lazımdı. Görüşüb lap o yana keçmək də. Kişiyə hərdən sol getmək olar, ancaq hər şeyin təhəri var... Mənim də əlimdən gəlib keçənlər olub. Özümə korluq verməmişəm. Hamımız Allah bəndəsiyik, ancaq belə şeyləri hisslə görməmişəm. Ağıllı, ölçülü-biçili hərəkət etmişəm. Olub-qurtarıb. Onunku onda, mənimki məndə. Hisslə yanaşdınsa, sapı çıxdı... Birdən də durub könül dilxoşluğuna, ay guya kiminsə sevdim deyə, hər şeyi altüst eləyəsən, öz yuvana su çiləyəsən. Dəyərmi? Məni dəli eləyib çöllərə salacaqsa, ailədə, işdə hörmətsiz eləyəcəksə, nəyimə lazımdır o sevgi. Hamı Məcnun, Məcnun deyir, soruş ancaq görüm, Məcnun olmaq istəyən varmı?"

İstəyi, rəğbəti belə bəlli olmayan bu adamın sevgi, ali hiss, qutsal duyğu yox, heyvani münasibət fonundakı "eşq siyasəti" adamı diksindirir. Deməli, bu cür düşünən adamdan hər cür rəzillik gözləmək olar. Ehtimalımız özünü doğruldur. Kişi daha sonra qızının qaynı arvadı haqqında danışır. Onun gözəl, cazibədar biri olması, hətta ona meyil salması və s. bu kimi nüanslar nəql edilir. Daha sonra məlum olur ki, kişi bu qadını izləyir, onun niyə işdən gec gəlməsi, başqa adamla görüşməsi, ərinə xəyanət etməsi məsələlərini çözür. Qızını da, həmin qadının ərini də, qaynanasını da uyarır. Onların laqeydliyini görüb bir az da təhrikedici addımlar atıb qızının qaynını (həmin qadının ərini) maşınına qoyub onun iş yerinə aparır. Gecə işdən çıxanda başqa adamın maşınında getməsi məqamını ona zor-güclə izlədir və qadının əri dözməyib maşından düşür, sonra onun intihar xəbərini eşidir. Qəribədir ki, bu vaqeədə özünü günahkar bilməyən kişi yenə də yozumlar verir və hər yozumda bir əybəcər insan fiquru peyda olur: "Yolun ortasında maşını saxlatdı ki, düşürəm. Nə qədər elədim, dedim, hara lazımdı aparım, razı olmadı. Qapını çırpıb düşdü. Sonra nə eləsə yaxşıdı? Özünü asdı. Ağlın nə kəsir beləsindən?! Axmaqlıqdı... Allah eləməsin, onun yerində mən olsam, basıb gözünü çıxardardım, uzağı boşanardım. Daha özümü niyə öldürürəm?"

Təəccüblüdür ki, bu qətlin psixoloji planını hazırlayan əsl qatil öz qurbanlarını elə hey ittiham etməkdə davam edir. Oğlanın qırxı çıxandan sonra əhvalatı onun arvadına da danışdığını və qadının onu söyüb yamanladığını deyir: "Ağladı, ağzına gələni dedi mənə. Guya təqsir məndədi. Beləsinə nə deyəsən?"

Sarsıntı isə maşın sahibi, monoloq söyləyən adamın yox, onu dinləyən, ona yol yoldaşı olan adamın içərisində baş verir. Onun daxilində bir insan ölür bu səfərdə... Hekayə bu cümlələrlə bitir:"Nədi, düşürsən? Çatdıq ki? İstədiyin yerə apara bilərəm, mənə görə narahat olma. Di özün bilərsən. Ancaq deyəsən, tələsdin".

Əslində bu səfər maşınla gediləcək yollarla ölçülmür. Bir ömür yolu deyilən marşrut var ki, yol boyu, yəni yaşaya-yaşaya insanları tanıyırıq və elə hey itiririk... Sanki bir qatar dolusu insanla səfərə çıxıb sonda, qatardan enəndə (ömrümüzün sonunda) tək düşürük pillələri... Əliboş, yoldaşsız, təmtək...

Bu isə artıq faciədir-insanın faciəsi... S.Budaqlı bu itkilərdən yazır, bu adamların mahiyyətindən yazır. Və maraqlıdır ki, tipikləşmiş, xarakterləşmiş obrazlar deyil bunlar. Adi surətlərdir. Lakin bu "adi"likdə ümumi olana- ümumiyyətlə, insana xas saysız-hesabsız cizgilər aşkarlayırıq. Burada isə özünü ifşa edən surətin hekayənin əvvəlində dediyi "Uzun müddət, lap bir damın altında yaşadığın adamı olar ki, tanımayasan. Şəraitdən çox şey asılıdır. Görürsən. Vəziyyət elə hərlənib gətirir, yaxın saydığın adamın başqa sifəti çıxır üzə"- fikri yada düşür. Həyatda da belədir. İnsanlar vəziyyət dəyişdikcə çeşid-çeşid olur. Yüzbaşlı əjdahalar kimi, boynu vurulduqca yeni başla, yeni cilddə, yeni sifətdə təzədən doğulur...

Hekayə bitir, oradakı adamlar bizimlə qalır, onların sosial-psixoloji yöndən təhlilləri bitmir. Cinayətdən, faciədən əli quru çıxan adama yaxınlaşırıq, elə bil güzgüyə baxırsan, diksinirsən, bu nədi? Bu adammı mənim içimdən çıxdı, mənmi onun sifətinə köçmüşəm? Qarışdırırıq... Yenə belimizə kəndir bağlayıb içimizə enirik, endikcə də məsafə dərinləşir...

S.Budaqlı yaradıcılığında əsas obyekt, təhlil predmeti də məhz bu daxilimizə uzanan yoldur. İnsana gedən yol... Bu yol isə bitən deyil. Dünya ədəbiyyatının insanı da daha çox bu yollarda öyrənilir, amma o insanın kimliyi də tam bəlli olmayıb hələ. M.Fuko deyirdi ki, insan bu yaxınlarda edilmiş kəşfdir...

*15 mart 2017*

**Ədəbiyyat qəzeti.- 2017.- 18 mart.- S. 25.**